**“Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 875-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 5, maddə 348; 1999, 11, maddə 609; 2000, 11, maddə 776; 2001, 9, maddə 576, 12, maddələr 733, 736; 2002, 12, maddə 706; 2004, 7, maddə 505, 12, maddə 976; 2005, 1, maddə 2, 12, maddə 1082; 2006, 11, maddə 923, 12, maddə 1018; 2007, 1, maddə 4, 12, maddə 1193; 2008, 2, maddə 49, 4, maddə 254, 6, maddə 462, 7, maddə 602; 2009, 12, maddə 970; 2010, 4, maddə 276, 11, maddə 949; 2011, 10, maddə 883; 2013, 11, maddə 1284, 12, maddə 1487) aşağıdakı dəyişikliklər edilsin:

1. 13-cü maddənin birinci hissəsində “bağlandıqdan” sözü “hüquqi qüvvəyə mindikdən” sözləri ilə əvəz edilsin.

2. 18-ci maddənin onuncu abzasında “bağlanılmadan” sözü “hüquqi qüvvəyə minmədən” sözləri ilə əvəz edilsin.

3. 21-ci maddənin birinci hissəsinin yeddinci abzasında “əmək müqaviləsi olmadan işləyənlər olduqda və ya müqaviləsi olduğu halda” sözləri “əmək müqaviləsi (kontraktı) olmadan işləyənlər olduqda və ya əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə mindiyi halda” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 oktyabr 2014-cü il
1075-IVQD